# "İstənilən halda, neftin qiyməti artacaq"

## İlham Şaban hesab edir ki, OPEC neft qiymətinin formalaşmasında mühüm rol oynaya bilmir

**Dünya bazarında neftin qiyməti yenidən ucuzlaşmağa başlayıb. Srağagün "AzeriLight" markalı neftin bir barelinin qiyməti 1,65 dollar və ya 4,81 faiz azalaraq 32,61 dollar təşkil edib. ABŞ-ın "Goldman Sachs" sərmayə bankının xammal bazarları üzrə ekspertlər qrupunun rəhbəri Ceff Karri bu barədə danışarkən bildirib ki, neftin qiyməti bundan sonra da aşağı düşəcək. Onun sözlərinə görə, buna səbəb anbarlarda neftin həddindən artıq toplanılmasıdır və belə olan halda neftin qiyməti nəinki qalxmayacaq, əksinə, daha sürətlə enərək bir barelə görə 20 dollara düşəcək. Lakin BP-nin Baş İcraçı direktoru Robert Dadli bir qədər ümidverici fikirlərlə çıxış edərək, cari ilin ortalarında neftin bir barelinin qiymətinin 40, ilin sonunda 50 dollar olacağını proqnozlaşdırıb. Dubayda Risklərin İdarə Olunması İdarəsinin müşaviri, Yaxın Şərq üzrə analitik Teodar Karasik isə neftin qiymətinin yalnız 2017-ci ildə 55 dollara çatacağını bildirib. Göründüyü kimi, dünya bazarında neftin qiyməti stabil deyil və ekspertlər tərəfindən bununla bağlı müxtəlif proqnozlar verilməkdədir. Bəs azərbaycanlı ekspertlər neftin qiyməti barədə nə fikirləşir, hansı proqnozlar verir, dünyada baş verən prosesləri necə qiymətləndirirlər? Bu mövzuda "Kaspi"nin suallarını Neft Araşdırmaları Mərkəzinin rəhbəri, iqtisadçı ekspert İlham Şaban cavablandırır.**



**- İlham bəy, xarici mütəxəssislər tərəfindən neftin qiyməti ilə əlaqədar müxtəlif proqnozlar verilir, fərziyyələr irəli sürülür. Bu sahəni araşdıran bir mütəxəssis kimi sizin fikriniz nədən ibarətdir?**

- Beynəlxalq Enerji Agentliyi 2 gün bundan öncə fevral hesabatını açıqlayıb. Bu hesabat çox gözlənilməz nəticələri ortaya çıxarıb. Birincisi budur ki, yanvar ayında dünyada neft hasilatı heç də azalmayıb. Əsasən də OPEC ölkələrində neft hasilatı artmaqda davam edib. Qeyri-OPEC ölkələrində isə hasilatda azalmalar özünü göstərib. Düzdür, bu, böyük azalma deyil. Lakin Səudiyyə Ərəbistanı, İran və İraq kimi üç böyük nəhəng neft hasilatını artırmaqda davam edib. Dünyanın neft içində üzdüyü vaxtda bu nəhənglərin hasilatı artırması neftin qiymətinin aşağı düşəcəyinə yeni bir siqnaldır. Beynəlxalq Enerji Agentliyi göstərib ki, cari il üçün dünya üzrə neftin proqnoz göstəriciləri, ona olan tələbat, yəni istehlak 100 min barrel azalacaq. Bu göstəricilər əsasında hesabat açıqlanan kimi dünya birjalarında neftin qiyməti ucuzlaşmağa başladı. Qərbi Texas markalı neft 29 dollara düşdü. Brend markalı neft isə 33 dollardan aşağı düşməyə başladı və hazırda 31 dollardan da ucuzdur. Hansı ki, brend markalı neft 26 yanvar tarixində 36,77 dollar səviyyəsinə qədər yüksəlmişdi. Digər tərəfdən, Beynəlxalq Enerji Agentliyinin açıqlamasına görə, neftin qiyməti cari il üçün daha da bədbin istiqamətə yönəlib. Bununla da 2015-ci ilin sonunda verilmiş proqnozlar daha da neqativ istiqamətə yönəlmiş olub.

**- Neftin qiymətinin ucuzlaşdığı bir vaxtda Çin və Avropada enerjiyə tələbat da azalmaqdadır. Təbii ki, bu amil də qiymətlərə öz təsirini göstərir. O zaman sual yaranır ki, nədən qeyd olunan ölkələr birdən-birə enerjiyə ehtiyac duymadılar? Bu da bir siyasi oyundurmu, yoxsa iqtisadi əsasları var?**

- Burada başa düşülməyən mürəkkəb hadisə yoxdur. Məsələ burasındadır ki, Çin iqtisadiyyatı son illər həddindən artıq infrastruktur layihələri həyata keçirirdi. Misal üçün, Çində bir ildə o qədər dəmir yolu xətti inşa edilirdi ki, bu, bütün dünyada bir ildə çəkilən dəmir yolları xəttindən çox idi. Dəmir yolunun çəkilməsi üçün dəmir, polad lazımdır. Poladı istehsal etmək üçün isə enerjiyə tələbat duyulur. Bu enerjini ödəmək üçün Çin neft və qaz idxal edirdi. Yaxud, ikinci amil çoxlu sayda tikinti işlərinin aparılması ilə əlaqədardır. Bu tikintilərdə geniş şəkildə istifadə olunan alüminiumdur və bu məhsulun da dünyada bir nömrəli ixracatçısı Avstraliyadır. Birdən-birə alüminiumun istehlakı 5 dəfə azaldı. Nəticədə Avstraliyanın milli valyutası çökdü. Başqa tərəfdən, misin, poladın, dəmirin istehlakı azaldı. Ümumiyyətlə, infrastruktur layihələrinə 100 milyardlarla dollar vəsait xərclənirdi. Bunun da bir sonu olmalıydı və bu sonu proqnoz edirdilər.

**Təbii ki, neftin qiymətinin kəskin ucuzlaşmasında siyasi səbəblər də vardır. Burada bir sıra dövlətlər özlərinin çox böyük valyuta ehtiyatlarına arxalanırlar. Digər tərəfdən, onların nefti satmaq üçün başqa alternativləri yoxdur. Ən nəhayət, həmin dövlətlər körfəzdə əzəli düşmənləri olan İranla mübarizəyə girişirlər**

2014-cü ilin sonundan neftin qiymətində ucuzlaşmanın baş verməsi ilə proqnozlar özünü doğrultmağa başladı. Avropaya gəldikdə isə, faktiki olaraq 2010-cu ildən sonra buradakı ölkələrdə enerjiyə tələbat cüzi də olsa artmır. Avropanın avtomobil yanacağı enerjisinə olan tələbatı neft ekvovalentində götürsək, 1985-ci il səviyyəsinə düşüb. Bu onu göstərir ki, Qərbdə yeni texnologiyalar geniş şəkildə tətbiq olunur. Danimarkada paytaxtın istiliyə olan tələbatının 90 faizi alternativ enerji hesabına ödənilir. Əvvəllər bunu ağıla gətirmək mümkün deyildi. Bu ölkənin enerjiyə olan tələbatının 40 faizi alternativ enerjidən qaynaqlanır. Bir çox ölkələr alternativ enerjini özlərinin enerjiyə olan başlıca tələbatı kimi görmür, həm də enerjidən rasional istifadə etməyi bir nömrəli vəzifə kimi qarşıya qoyurlar. Məsələn, əvvəllər hər hansı işi görmək üçün bir kilovatt enerji istifadə edirdisə, indi bunun üçdə birindən yararlanır. Belə hadisələrin baş verməsi Çin və Avropada enerjiyə olan tələbatı azaldır.

**- Əcnəbi mütəxəssislər hesab edirlər ki, neft bazarında indiki vəziyyətin günahkarı ABŞ, Rusiya və İranı zəifləmək məqsədilə iqtisadi və siyasi böhran yaratmaq istəyən Səudiyyə Ərəbistanıdır. Siz necə düşünürsünüz, neftin qiymətinin kəskin ucuzlaşmasında siyasi, yoxsa iqtisadi amillər daha çox rol oynayır?**

- Təbii ki, neftin qiymətinin kəskin ucuzlaşmasında siyasi səbəblər də vardır. Burada bir sıra dövlətlər özlərinin çox böyük valyuta ehtiyatlarına arxalanırlar. Digər tərəfdən, onların nefti satmaq üçün başqa alternativləri yoxdur. Ən nəhayət, həmin dövlətlər körfəzdə əzəli düşmənləri olan İranla mübarizəyə girişirlər. Ona görə də neft bazarında öz mövqelərini kimsəyə vermək niyyətində deyillər.

**- Fevralın 16-dan etibarən İran Avropaya böyük həcmdə neft ixracına başlayacaq. Bu amil regiondakı proseslərə, o cümlədən nəhəng iqtisadi layihələrə necə təsir göstərə bilər?**

- Əgər siz regiondakı iqtisadi layihələrdən danışarkən TAP və ya TANAP-ı nəzərdə tutursunuzsa, düşünmürəm ki, İranın Avropaya neft ixrac etməyə başlaması bu layihələrə neqativ təsir göstərsin. Çünki Azərbaycan üçün sözügedən layihələrin icrası prioritetdir. Biz bu layihələrin maliyyələşməsini Neft Fondundan əldə edirik. Bu layihədə iştirak edən digər şirkətlər isə öhdəliklərini özləri maliyyələşdirirlər. Burada əsas məsələ budur ki, şirkətlərin imkanları olsun və onlar öhdəliklərini yerinə yetirə bilsinlər. Azərbaycan da bu layihələrdə üzərinə düşən öhdəliyi yerinə yetirəcək. Hazırda layihə tikinti mərhələsindədir və 20 faiz iş artıq arxada qalıb. "Şahdəniz" layihəsi üzrə tikinti işlərinin demək olar ki, yarısı başa çatıb. Bu, çox sevindirici haldır. Ümumi layihədə 15 min insan çalışır. Bir layihəni ki, işə saldın, onu ortada dayandırmağın mənası yoxdur. Böyük əhəmiyyət kəsb edən TAP-TANAP layihələrinin tikintisinə beynəlxalq nüfuzlu şirkətlər qərar verib, dövlətin də dəstəyi var və iş gedir. İranın neft ixracının regiona təsirinə gəlincə, Xəzər regionundakı ölkələr neft-qaz-enerji ölkələridir, neftdən asılı dövlətlərdir. Bu ölkələr arasında qeyri-neft sektoru inkişaf edən ölkə ancaq İrandır. İranın daim sanksiyalar altında olması, neft ixrac edə bilməməsi bu ölkəni məcbur edib ki, iqtisadiyyatın digər sahəsini inkişaf etdirib gəlir əldə etsin. Buna misal kimi İranın daxili bazarının inkişafını, onun imkanlarından maksimum yararlanmağı, hətta neftin qiymətinin aşağı olması zamanı da yaşaya bilmək təcrübəsini göstərmək olar. Rusiya, Qazaxıstan, Türkmənistanın timsalında isə bunu demək mümkün deyil. Azərbaycan da son 15 ili neftdən gələn gəlirlər hesabına şad-xürrəm həyat sürüb. Lakin neftin qiymətinin ucuzlaşması fonunda tamamilə yeni situasiya ilə üzləşmişik, çətin bir dövrə qədəm qoymuşuq. Bununla barışmaq lazımdır.

**- OPEC hansısa inzibati yolla neftin qiymətini tənzimləyə bilərmi, yoxsa bu qurum formal oyunçudur?**

- Baxmayaraq ki, OPEC dünya neftinin üçdə birini hasil edir, lakin XXI əsr başlayandan bu qurum dünya bazarında neft qiymətinin formalaşmasında mühüm rol oynaya bilmir. Burada bir nömrəli oyunçu ABŞ-dır. Amerikanın enerji administrasiyası ölkənin həftəlik enerji ehtiyatlarını açıqlayan zaman bazara birdən-birə 3 faiz təsir etmək gücündədir. Amma OPEK hətta müəyyən qərarlar qəbul edəndə belə, bazarda hər hansı dəyişiklik baş vermir.

**- ABŞ-da aşağı qiymətlərlə Şist neftinin istehsalı azalmaqdadır. Bu azalma Amerikanın əlavə neft idxal etməsinə, bu isə dünya bazarında neftin qiymətinin artmasına gətirib çıxara bilərmi?**

- ABŞ-da şist neft istehsalının azalması doğru xəbərdir və bu proses davamlıdır. Şist neft hasilatında 35, hətta 40 dollardan aşağı olan qiymətlərdə müəyyən yataqlar, quyular artıq bağlanıb. Lakin bir məsələ var ki, ABŞ-da hazırda işlək quyuların rentabelliyi çox yüksəkdir. Xatırlayırsınızsa, əvvəllər belə proqnozlar var idi ki, təxminən 3 ay müddətinə neftin qiyməti 50 dollardan aşağı olacaqsa ABŞ-da şist neft hasilatı tamam dayanacaq. Amma bəhs etdiyim rentabellik hesabına dünya belə bir ssenari ilə qarşılaşmadı. Baxmayaraq ki, bu günə kimi ABŞ-da mindən artıq quyu bağlanıb, ona ekvivalent olaraq neft hasilatı aşağı düşməyib. Çünki işlək quyuların rentabelliyi həddən artıq yüksəkdir.

**- Neftin qiymətinin ilin ortalarında 40, sonunda 50 dollar olacağı barədə proqnozlar verilir. Siz bu barədə nə düşünürsünüz?**

- İyirmi ildir ki, neft bazarını izləyir, araşdırma aparıram. Adətən il üçün proqnozlar veriləndə neqativ, pozitiv, neqativ-normal və pozitiv kimi verilirdi. Vaxt var idi bu proqnozlar arasında fərq 2 dollar idi, sonradan 5 dollara qədər dəyişdi. Ancaq cari il üçün proqnozlar arasındakı fərq 15 dolları keçib. Yəni, pozitiv ilə neqativ proqnoz arasında 15 dollardan artıq fərq var. Bu o deməkdir ki, ortada çoxsaylı ssenarilər var və onların hansının düzgün olacağını neft oyunçuları, neft bazarı iştirakçıları özləri də müəyyənləşdirməkdə çətinlik çəkirlər. Bu baxımdan mənim üçün də neftin qiyməti ilə bağlı dəqiq proqnoz vermək çətindir. Amma istənilən halda, neftin qiyməti artacaq. Sadəcə həqiqət budur ki, indiki dövrdə 50-60 dollar neftin yüksək diapazonu olacaq. Bununla belə, neftin qiymətinin sabit olacağını proqnozlaşdırmaq da çətindir. Demək olmaz ki, neftin qiyməti 4-6 ay müddətində konkret bu qiymətdə olacaq. Neftin qiyməti 25 dollara da düşə bilər, 40 dollara da qalxa bilər. Yaxud yenidən düşüb 50 dollara da qalxa bilər. Çünki dünya bazarındakı qiymətlərdən danışarkən yalnız hasilat məsələsini deyil, üzən barjaları, quruda çox böyük həcmdə neftin saxlanması amilini də unutmaq olmaz. Situasiyanın yaxşı olacağı və ya gələcəklə bağlı bədbin proqnozlar olacağı təqdirdə kreditlər həmin həcmləri tez satmağa çalışırlar. Bunun nəticəsində də neftin qiyməti 3 gündən sonra kəskin dəyişir. Ona görə də neftin qiymət göstəricilərində sınıq xətlər daim inkişaf edir, qiymət gah qalxır, gah da aşağı düşür. Güman edirəm ki, bu kimi amillər yaxın il yarım ərzində neftin qiymətinin stabilləşməsinə imkan verməyəcək.

**Rufik İSMAYILOV**